**UOT:78.**

# AĞABACI RZAYEVANIN YARADICILIĞINDA UŞAQ MUSİQİSİ

***Məhərrəmova Səma Bəşir qızı***
***Gəncə Dövlət Universiteti***
***Semameherremova74@mail.ru***

**Xülasə:** *Azərbaycan bəstəkarlarının uşaq musiqisi musiqi tarixini inkişafında özünəməxsus yer tutur. Uşaq musiqisinin inkişafında Azərbaycanın görkəmli bəstəkarı A.Rzayevanı xüsusi qeyd etmək olar.*

*Ağabacı Rzayevanın uşaq üçün yazdığı "Kukla", "Şən yolka", "Göyərçinim", "Vətən" və s. mahnıları uşaqlara nəciblik, xeyirxahlıq, vətənpərvərlik hissləri aşılayır.*

*Məqalədə Ağabacı Rzayevanın uşaq musiqisi nəzərdən keçirilmiş və səciyyəvi xüsusiyyətləri təhlil edilmişdir.*

**Açar sözlər:** bəstəkar, yaradıcılıq, musiqi, musiqi tərbiyəsi, mahnı.

**Ключевые слова:** композитор, творчество, музыка, музыкальное воспитание, песня.

**Key words:** composer, creativity, music, music education, song

Ağabacı Rzayeva (1912-1975) Azərbaycanda eləcə də bütün Şərqdə ilk professional qadın bəstəkar kimi musiqi tarixinə daxil olan simadır. Əməkdar incəsənət xadimi Ağabacı Rzayeva yaradıcılığında musiqinin bir çox janrlarına müraciət etmiş, musiqili səhnə əsərləri, müxtəlif alətlər üçün pyeslər, xalq çalğı alətləri orkestri üçün əsərlər yazmışdır.

Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir Hacıbəylinin kompozisiya sinifində təhsil almış, onun ən sevimli tələbələrindən biri olmuşdur. Musiqi-nəzəri fənlərdən isə ona Ü.Hacıbəyli, Ə.Bədəlbəyli və C.Hacıyev dərs deyirlər. Bir il sonra o, Ü. Hacıbəylinin yaratdığı ilk notlu xalq çalğı alətləri orkestrinə qəbul olunur, 1938-ci ildə isə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında iştirak edir. O, həm Azərbaycanda, həm də bütün Şərqdə peşəkar musiqi təhsilini almış ilk qadın-bəstəkardır.

Üzeyir Hacıbəyli Ağabacı haqqında bu sözləri demişdir: "Xalqını sev. Əsərlərini xalqın başa düşəcəyi dildə yaz ki, xalq da səni sevsin. Sən sübut etdin ki, qadın da bəstəkar ola bilər" [1, s. 25].

1942-ci ildə onu Azərbaycan Bəstəkarlar İttifaqına uzv seçirlər. Artıq o, daha məsuliyyətli, daha məhsuldar işləməyə başlayır. Biri-birinin ardınca mahnı-romanslar yazır. 40-cı illərin mahnı-romansları arasında Mirvarid Dilbazinin sözlərinə yazılmış "Partizan oğlu", "Qəhrəman ananın qəhrəman oğlu" və s. göstərmək olar. 1944-cü ildə Tbilisi şəhərində keçirilən Zaqafqaziya Respublikalarının musiqi onqünlüyündə o vaxt Azərbaycanın gənc bəstəkarları olan Qara Qarayev, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Fikrət Əmirovla birlikdə A.Rzayevanın da əsərləri böyük müvəffəqiyyətlə səslənmişdi. Onun orkestr üçün yazdığı "Yallı" instrumental əsəri ilə yanaşı görkəmli müğənnimiz Bülbülün ifasında mahnı-romanslarından "Gözləyirəm sevgilim" (sözləri Cəfər Xəndanın), "Gözlərin" (söz.İsmayıl Soltan), "Dilbərim" (söz. Zeynal Cabbarzadə) ifa olunmuş və böyük müvəffəqiyyət qazanmışdı.

Araşdırmalar göstərir ki, A.Rzayeva respublikanın ictimai həyatında da fəal iştirak etmişdir. O, bir neçə çağırış Azərbaycan Ali Sovetinin deputatı olmuş, 2 dəfə "Qırmızı Əmək Bayrağı" ordeni, "Şərəf Nişanı" (1972) ordeni və müxtəlif medallarla təltif olunmuşdu. 1960-cı ildə ona əməkdar incəsənət xadimi fəxri adı verilmişdir.

Ümumiyyətlə A.Rzayeva o xoşbəxt sənətkarlardan idi ki, onun mahnı-romanslarını Bülbül, Şövkət Ələkbərova, Firəngiz Əhmədova, Rəhilə Cabbarova, Sona Aslanova kimi müğənnilər ifa etmişdilər.

A.Rzayeva söz sərrafı idi. Poeziyanı, şeriyyatı gözəl bildiyi üçün mahnı və romanslarında sözlərə böyuk əhəmiyyət verir, klassik şairlərə müraciət edirdi. Onun romanslarında daha çox Nizami Gəncəvi, M.Füzuli, İmaməddin Nəsimi, M.P.Vaqif, X.Natəvan, M.Ə.Sabir, M.F.Axundov, Səməd Vurğun, M.Müşfiq N.Hikmət və başqalarının şerlərinə rast gəlmək olur. Bəstəkar Rus poeziyasına da böyuk məhəbbətlə yanaşırdı.

Maraqlıdır ki, Azərbaycan bəstəkarı rus poeziyasının əlçatmaz zirvəsində möhkəm dayanan A.Puşkin və M.Lermontovdan edilmiş tərcümələrdən də ilham almış, Balakirev və Raxmaninov kimi "Oxuma, gözəl" şerinə müraciət etmişdir. Romans böyük müğənni Bülbülün təfsirində geniş dinləyici rəğbəti qazanmışdır.

Qeyd edək ki, A.Rzayeva musiqinin digər janrlarına da muraciət edib. Bəstəkarın yaradıcılıq portfelində həmkarı İsmayıl Quliyevlə birlikdə yazdığı "Höcət eləmə" musiqili komediyası, bir sira instrumental əsərlər, Xalg Çalğı Alətləri üçün "Şənlik süitası", "Rəqs", "Yallı", "Cəngi", simli kvartet üçün variasiyalar, tar, kamança, qaboy üçün pyeslər və s. əsərlər vardır.

F.Xalıqzadə "Azərbaycanın ilk qadın bəstəkarı" adlı məqaləsində qeyd etmişdir ki, "Ağabacı Rzayevanın özünəməxsus dəst-xətti sənətdə atdığı ilk addımlardan müəyyənləşir. Xalq musiqisinə yaxınlıq, ifadəli melodik üslub, daxili hisslər aləmini səslər vasitəsilə dinləyicilərə çatdırmaq və şerlərin ruhuna həssaslıqla yanaşmaq istəyi, şübhəsiz, Ü.Hacıbəyli sənətinin müsbət təsirinin nəticəsi idi" [10, s. 32].

Mahnı janrı musiqinin mürəkkəb formalarından biridir. Çünki, kiçik bir əsərdə böyük bir fikri ifadə etməyi hər bəstəkar bacarmır. Mahnı janrının öz formaları, öz üslubları var. Bəstəkar A.Rzayevanın yaradıcılığının əsas və ən böyük bir qolunu mahnı və romanslar təşkil edir. Onun yazdığı hər bir romansı hər bir mahnısı ilk ifasından xalq tərəfindən sevilib, dillər əzbəri olub.

Bəstəkarın mahnı və romanslarında müasir şerimiz o qədər geniş təmsil olunmuşdur ki, həmin əsərlər vasitəsilə poeziyamızın müxtəlif simaları, əsas təmayülləri və ümumi inkişafı barədə müəyyən təsəvvür əldə etmək olar. N.Rəfibəyli, İ.Səfərli, Ş.Qurbanov, M.Rahim, Z.Cabbarzadə, Z.Xəlil, M.Dilbazi, T.Elçin, M.Araz, T.Mütəllimov və başqalarının şerləri onun bəstəkar qəlbini ilhamlandırmışdı. Bundan başqa, bəzən Ağabacı Rzayeva özü də şairliyə meyl etmiş, bəzi mahnıları öz sözlərinə bəstələmişdir – "Durna qatarlı qızlar".

Bəstəkarın vokal yaradıcılığında müxtəlif səpkili romanslar (o cümlədən, qəzəl-romans janrı), vətənpərvərlik və sülh, əmək və məhəbbət mövzuları, eləcə də uşaq həyatının müxtəlif səhnələrini canlandıran mahnılar çoxsaylı nümunələrlə təmsil olunmuşdur.

Əziz müəllimi, ölməz Ü.Hacıbəyli sənətinin güclü təsiri ilə A.Rzayeva Azərbaycan şairlərinin qəzəllərinə bir sıra musiqi yazmışdır – "Könlüm" (Nizami), "Afəti cansan" (Füzuli), "Zülfi pərişan olmasın" (Sabir), 70-ci illərdə isə Nəsiminin 600 illik yubileyi münasibətilə dahi şairin sözlərinə eyni qəbildən olan silsilə əsərlər yaranır ("Gəl, nigarım", "Bahar oldu", "Gül açıldı"). Bu barədə müəllif deyirdi: "Məni Nəsimi şerinə musiqi bəstələməyə vadar edən şairin incə lirikası, misralarındakı ahəngdar bağlılıq, bir də sərpa soyularkən ağlamayan mərdanəliyidir" [10, s. 32].

Onu da qeyd edək ki, professor S.Qurbanəliyeva "Nizami Gəncəvi poeziyasının Azərbaycan bəstəkarlarının vokal əsərlərində təcəssüümü" kitabında Ağabacı Rzayevanın "Könlüm" və "Qəmər nə lazım" romans-qəzəlləri haqqında yazmış və bu qəzəllərin təhlilini vermişdir [2, s. 71-75].

A.Rzayeva başqa həmkarlarından fərqli olaraq, Üzeyir Hacıbəylinin ölümünün ildönümü ilə əlaqədar Hüseyn Abbaszadənin sözlərinə “Sənin xatirən” adlı qəzəl-romans yazır və unudulmaz müəlliminin əziz xatirəsini əməli yaradıcılıq işilə anaraq, ona qarşı bəslədiyi səmimi hisslərini ifadə edir.

A.Rzayevanın mahnılarının başlıca qəhrəmanı parlaq sabahımızın qurucuları olan əmək adamlarıdır.

Araşdırmalar göstərir ki, A.Rzayeva 10 mart 1964-cü il tarixli “Böyük qayğı” məqaləsində yazırdı: “Mən bu mahnıları yazmazdan əvvəl ayrı-ayrı kəndlərə gedir, kolxozçuların həyatı ilə yaxından tanış oluram. Əlbəttə ki, bu da əsərlərimə öz müsbət təsirini göstərir. Yaxşı yadımdadır, rayonların birində qoyunçuluq fermalarında çobanlarla görüsüb, qoyun-quzuların içində gəzib, təmiz dağ havasını udandan sonra yazdığım “Çoban Qara” mahnısı daha real, daha təsirli çıxdı” [1, s. 49]. O, qəhrəman neftçilərimizi də unutmayıb. 50-ci illər yaradıcılığına nəzər salanda görürsən ki, bəstəkarın neftçilərə həsr olunmuş bir sıra silsilə mahnıları vardır. “Neftçilər”, “Bizim Fərman”, “Məzəli neftçi”, “Neftçi Qurban” bu qəbildən olan mahnılardır. Mahnılarını yazarkən şairlərlə birlikdə işləməyi xoşlayan bəstəkar, özü də bir sıra mahnılarına sözlər yazmışdı. Məsələn, “Durna qatarlı qızlar”, “Bizim sahə milisi” və s.

Əmək mahnıları ilə yanaşı A.Rzayevanin yaradıcılığının böyük bir qismini lirik mahnılar tutur. Onların arasında dillər əzbəri olan “Evimizə gəlin qəlir”, “Toy mahnısı”, “Telli sazım”, “Kəklik”, “Şuşanın yolları” və başqalarını göstərmək olar.

Bütün bu əsərlərdə bəstəkarın özünə məxsus dəsti-xətti hiss olunur. Onun musiqi dili sadə, harmoniyaları dolğundur. Xalq musiqisinə yaxınlıq, həzin melodiya əsərlərinin qayəsini təşkil edir.

Qeyd edək ki, A.Rzayeva yaradıcılığında uşaq musiqisi əhəmiyyətli yerlərdən birini tutur. 30 dekabr 1965-ci il “Azərbaycan müəllimi” qəzetində çıxan “Uşaqların tərbiyəsinə dair” məqaləsində Ağabacı Rzayeva yazırdı: “Uşaqların bədii-estetik zövqünü inkişaf etdirməkdə, onlarda nəcib sifətlər yaratmaqda musiqinin boyük rolu oldugu hamıya məlumdir. Təsadüfi deyil ki, bir çox elləri gəzən, dillər əzbəri olan “Kukla” mahnısı uzun illərdir Azərbaycan musiqi xəzinəsinə daxil olan ən yaxşı uşaq mahnılarından biridir” [1,s.6].

1965-ci ildə Ağabacı Rzayeva bəstəkar İsmayıl Quliyev ilə birlikdə Həzi Məmmədovun librettosu əsasında “Höcət eləmə” musiqili komediyasını yazır.

“Bakı” qəzetinin 3 noyabr 1965-ci il tarixli nömrəsində musiqişünas Xanlar Məlikov musiqili komediyaya həsr olunmuş məqaləsində yazırdı: “Əsəri komediyanın həyat sevər musiqisi oldiqca zənginləşdirir. Bütün musiqili komediya boyu A.Rzayevanın “Kukla” uşaq mahnısının melodiyası eşidilir. Bu melodiya əsərin uvertürasında, xor və rəqs nömrələrində səslənir. “Kukla” uşaq mahnısının əsərdə səslənməsi heç də təsadüfi deyil. Çünki komediyada hadisələr uşaq oyuncaqları fabrikində baş verir. Ümumiyyətlə bəstəkarın “Kukla” uşaq mahnısının taleyi çox uğurlu olmuşdir. Bu mahnı yarandığı gündən populyar olmuş və bu günə qədər uşaqların sevimli mahnısı olaraq qalmışdır” [1, s. 42].

Uşaqlara aid mövzular bəstəkarı daim maraqlandırmış və düşündürmüşdür. Gənc dostları olan məktəbliləri, kicik yaşlı uşaqları unutmayaraq onlar uçun biri-birindən gözəl mahnılar yazmışdı. “Kukla”, “Qaranquş”, “Bakı metrosu”, “Qərənfiləm mən”, “Ağ göyərçinim”, “Balaca kapitan” və s. Bütün bu mahnılar bu günə gədər də öz əhəmiyyətini itirməyib, məktəb proqramlarında öz yerini tutub və uşaqların sevimli mahnılarına çevriliblər. Çunki, bəstəkar A.Rzayeva bu mahnıları uşaqların anladığı dildə yadda qalacağı tərzdə yazıb, melodiyalarının gözəlliyi ilə onları özünə cəlb edib.

Sevimli bəstəkarın son iri həcmli əsəri Azərbaycanın xalq şairi Mirvarid Dilbazinin eyniadlı poeması əsasında bəstələdiyi "Günəş eşgi" adlı uşaq operasıdır.

Bəstəkarın yaradıcılığı gənc nəsillər üçün gözəl bir məktəbdir.

Bəstəkarın mahnılarına ümumtəhsil məktəbləri üçün "Musiqi" dərsliklərində verilən yeri əyani olaraq cədvəl vasitəsilə göstərək:

| Sinif | Mahnının adı | Dərsliyin müəllifləri, nəşr ili | Dərslikdə yeri |
|---|---|---|---|
| I | Sözləri M.Seyidzadənin "Göyərçinim" | O.Rəcəbov, T.Babayeva | Bakı, 2020,səh.54 |
| II | Sözləri H.Ziyanın "Bakı metrosu" | O.Rəcəbov, N.Kazımov, N.Rəcəbova | Bakı, 2018,səh.45 |
| II | Sözləri T.Mütəllibovun "Şən yolka"; "Vətən" | O.Rəcəbov, N.Kazımov, O.İmanova | Bakı,2018, səh.28; 45 |
| II | Sözləri M.Ə.Sabirin "Gəl, gəl a yaz günləri" | O.Rəcəbov, N.Kazımov, O.İmanova | Bakı, 2020,səh.48 |

A.Rzayeva uşaq mahnı mədəniyyətinin inkişafına əhəmiyyətli dərəcədə xidmət göstərmişdir. Onun rəngarəng, müstəsna orijinallığına malik uşaq musiqisi saysız-hesabsız dinləyicilərin qəlbinə yol tapmışdır.

Beləliklə, Ağabacı Rzayevanın yaradıcılığı müasir üslubda yazan gənc qadın bəstəkarlarımız üçün bir örnək olmuşdur.

### *Ədəbiyyat*


1. Babayeva H. Ağabacı Rzayeva. Bakı, Aspoliqraf, 2013, 104 səh.
2. Qurbanəliyeva S. Nizami Gəncəvi poeziyasının Azərbaycan bəstəkarlarının vokal əsərlərində təcəssüümü. Bakı, Elm və təhsil, 2021. 264 səh.
3. Rəcəbov O., Babayeva T. I sinif üçün "Musiqi" dərsliyi. Bakı, Təhsil, 2005, 80 səh.
4. Rəcəbov O., Kazımov N., Rəcəbova N. Ümumtəhsil məktəblərinin II sinfi üçün "Musiqi" fənni üzrə dərslik. Bakı, Təhsil, 2018, 82səh.
5. Rəcəbov O., Kazımov N., İmanova O. Ümumtəhsil məktəblərinin III sinfi üçün "Musiqi" fənni üzrə dərslik. Bakı, Təhsil, 2018, 66 səh.
6. Rəcəbov O., Kazımov N., İmanova O. Ümumtəhsil məktəblərinin VII sinfi üçün "Musiqi" fənni üzrə dərslik. Bakı, Təhsil, 2018, 97 səh.
7. Bağırova T. "Uşaq musiqi yaradıcılığı". Dərslik. ADPU, Bakı, 2012, 413 səh.
8. Rəcəbov O. "Uşaqlar və mahnılar". Bakı, İşıq, 1985, 177 səh.

**Saytoqrafiya**

9. www. konservatoriy.az.
10. www.musiqi-dunya.az.


## ДЕТСКАЯ МУЗЫКА В ПРОИЗВЕДЕНИЯХ АГАБАДЖИ РЗАЕВОЙ

***Магеррамова Сяма Башир кызы***


***Резюме***

Особое место в развитии истории музыки занимает детская музыка азербайджанских композиторов.В развитии детской музыки можно особо отметить известного композитора Азербайджана Агабаджи Рзаеву. Ее песни воспитывают чувство благородства, доброжелательности, патриотизма у детей. В статье рассмотрена детская музыка Агабаджи Рзаевой и проанализированы ее отличительные черты.

## CHILDREN MUSIC IN AGABAJI RZAYEVA'S CREATIVITY

***Maharramova Sama Bashir***

***Summary***

Children music of Azerbaijani composers has a special place in the development of musical history. In the development of children music, the great composer of Azerbaijan, Agabaji Rzayeva can be specially mentioned. Agabaji Rzayeva's children songs “Kukla (A doll)”, “Shen Yolka (Merry Christmas)”, “Goyerjinim (My Pigeon)”, “Veten (Motherland)” etc. instill in children the feelings of nobility, kindness and patriotism. Agabaji Rzayeva's children music and its characteristic features is considered and analysed in the article.

***Rəyçi: baş müəlllim Həsənova S.***

***GDU-nun “Musiqi fənləri” kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın çıxarışı 02 saylı rpotokolu***

***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***

**UOT: 781.**

## FORTEPİANO İFAÇILIĞINDA TEXNİKİ MƏŞĞƏLƏLƏRİN MAHİYYƏTİ

***Quliyeva Ülviyyə Elbrus qızı***
***Gəncə Dövlət Universiteti***
***morten.harket85@gmail.com***

**Xülasə:** *Məqalədə fortepiano ifaçılığının əsasını təşkil edən texniki məşğələlərin yaranma tarixinə nəzər yetirilmiş, görkəmli bəstəkarların, pianoçu-pedaqoqların təcrübələri əsasında onların mahiyyəti ətraflı işıqlandırılmışdır.*

*Texnika- qamma,akkord və arpecioları, ikili notları, oktavaları və digər ifa növlərini özündə birləşdirən ümumi bir anlayışdır. Müxtəlif üslub və dövr bəstəkarlarının əsərlərinin fakturasının mürəkkəbliyi musiqi fikrinin texniki ifadə vasitəsinin mənimsənilməsini müasir pedaqogikanın aktual məsələlərindən biri kimi təyin edir.*

**Açar sözləri:** fortepiano, qamma, texniki məşğələ, akkord və arpecio

**Ключевые слова:**фортепиано, гамма, технические упражнения, аккорд и арпеджио

**Key words:** piano, gamma, technical exercises, chord and arpeggio

Fortepiano pedaqogikası özünün təkamül prosesində uzun bir inkişaf yolu keçmişdir. XVI-XVII əsr klavir ifaçılarının elmi əsərlərində ifa texnikası, alət arxasında oturmaq qaydası, hərəkətlər,applikatura haqqında mülahizələr izlənilirdilər. Texniki məşğələlər üzərində işin məzmunu və metodikası J.F.Ramonun (1683-1764) “Barmaq texnikası üsulu” (1724) və F.E.Baxın(1714-1788) “Klavirdə ifa etmək sənəti haqqında təcrübə” (1753-1762) adlı risalələrində təsvir edilmişdir.

Elmi araşdırmalar göstərir ki, qədim dövrün klavir pedaqogikasında, klavişli-simli çembalo, klavikord və klavesin kimi alətlərdə ifanın tədrisi zamanı qammaların öyrənilməsi musiqi tərbiyəsinin bir hissəsi kimi qəbul olunurdu. Erkən klavir ifaçılığı dövründə